# Novruz həm də igidlik, cəsarət, mərdlik bayramıdır

**Azərbaycan xalqının təqviminə Novruz baryamı nə zaman daxil olub sualının dəqiq cavabı yoxdur. Bildiyimiz odur ki, Azərbaycanın ən qədim mənbələrində də bu bayramın qeyd olunması barədə məlumatlar var. Zaman keçdikcə bəziləri unudulsa da, bu gün də Novruz bayramı adət-ənənələri olduqca zəngindir.**

Bu bayramın fərqliliklərindən, gözəlliklərindən biri odur ki, bir gün deyil, həftələrlə qeyd olunur. Təbiətin oyanışı, canlanması olan bahar sanki qışın soyuğundan, sazağından, qarından, şaxtasından keçərək günlərlə, həftələrlə, aylarla yol gəlir. Əvvəlcə "yalançı çərşənbə" adı ilə yazın yaxınlaşmağa başladığı barədə ilk doğru xəbəri alırıq. Sonra dörd çərşənbə - Su, Od, Yel və Torpaq çərşənbələri ardıcıl olaraq təntənə ilə bayram edilir. Təbiət tədricən oyanır və addım-addım bahara yaxınlaşır.

Novruz çərşənbələrinin hərəsinin özünəməxsus adət-ənənələri var. Novruz bayramı isə xüsusi təmtəraqla keçirilir. Bu bayram milli birliyin, həmrəyliyin, bərabərliyin rəmzi hesab edilir.

Novruz bayramında keçirilən şənliklər insanlara xüsusi ovqat bəxş edir. Meydanlarda kütləvi oyunlar, rəqslər, yallılar oynanılır, kəndirbazların tamaşaları nümayiş olunur. Aşıqlar deyişir, mahnılar oxunur. Qədim zamanlardan Novruz şənliklərində "Yel baba", "Cütçü şumu", "Kosa-kosa", "Qaravəlli", "Sayaçı", "Aşıq oyunu", "Dirə döymə", "İynə-iynə" və başqa xalq oyunları keçirilib.

Novruz təşkil olunan atçapma, güləş və digər yarışlarda elin güclü, qüvvətli igidləri öz bacarıqlarını göstərirlər. Odur ki, "Çövkən", "Mil", "Cıdır", "Baharbənd", "Qurşaqtutma", "Qılıncoynatma", "Sürpapaq", "Piyalə və ox", "Çövkən" və digər oyunların nümayiş olunması maraqla gözlənilib.

## Çövkən oyunu

Bu da at üstündə milli oyunlarımızdan biridir. Nəsillərdən-nəsillərə keçərək bu günümüzə gəlib çatıb. Qədimdən Çövkən el şənliklərində, ən çox Novruz bayramında təşkil edilir. Oyunçular iki dəstədə mübarizə aparırlar. Hər dəstə 6-8, bəzən daha çox iştirakçıdan ibarət olur. Onlar topu iki tərəfdə qoyulan dirəklərdən ibarət rəqib qapılarından keçirməlidirlər.

İki hissədən ibarət olan oyun 30 dəqiqə davam edir. İştirakçılardan yaş həddi tələbi yoxdur. Çövkən oyununda adətən meydana çevik, cəld, sağlam, eyni zamanda mahir at miniciləri çıxırlar. Oyun zamanı iştirakçılar eyni uzunluqda olan çomaqdan istifadə edir, kiçik taxta topu rəqibin qapısına vurmağa çalışırlar.

Çövkən oyununun da qədimliyi mənbələrdən məlumdur. Bu oyunun qədim Azərbaycan miniatürlərində çoxsaylı təsvirləri, eləcə də ilk yazılı mənbələrdə qaydaları və inkişafı barədə məlumat var.

Cıdır kimi, Çövkən adı da "Kitabi-Dədə Qorqud" eposunun boylarında çəkilib. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasında bu oyun təsvir edilirdi:

*Şirinə dedi ki: "Gəl, at çaparaq,*
*Bu geniş düzəndə çövkən oynayaq".*
*Xosrovun çövkəninə top atdılar.*
*Gözəllər səs-küyə at oynatdılar...*
*Topa yel əlindən vuranda çövkən*
*Günəşin topunu salırdı tovdan.*

2013-cü il dekabrın 3-də Bakıda UNESCO-nun Qeyri-Maddi Mədəni İrsinin Mühafizəsi üzrə Hökumətlərarası Komitəsinin 8-ci sessiyasında Azərbaycanda Qarabağ atları üstündə keçirilən ənənəvi çövkən oyunu Təcili Qorunmaya Ehtiyacı Olan Qeyri-Maddi Mədəni İrsin Siyahısına daxil edilib.



## Qurşaqtutma

Zorxana idman növünə daxil olan, ölkəmizdə geniş şəkildə oynanılan qədim oyunlardan biri sayılan qurşaqtutma ən çox yaza az qalmış, bayramqabağı təşkil edilir. Novruz bayramında və başqa el şənliklərində keçirilən bu oyun əsl güc nümayişidir.

Novruz şənliklərində pəhləvanlar qoşa zurnanın döyüşkənliyə, cəsarətə səsləyən səsi, zərb alətlərinin gur sədası altında meydana çıxırlar. Onlar meydanı dolaşıb özündən deyən igid cavanları güləşə çağırırlar:

*Mənəm nərlərin nəri,*
*Ay oğlan.*
*Mənəm ərlərin əri,*
*Ay oğlan.*
*Əl-qolunu çatdadaram,*
*Ay oğlan.*
*Bağrını partladaram,*
*Ay oğlan.*

Bir qayda olaraq pəhləvanların ənənəvi salamlaşmasından, özlərini təqdim etmələrindən sonra yarış başlayır. "Cəngi" sədaları altında yarışan pəhləvanlar beldən aşağı müxtəlif fəndlər işlədir, bir-birinin qurşağından yapışır, biri digərini yıxmağa çalışır. Sonda yarışın qalibi müəyyən edilir. Ona müxtəlif hədiyyələr verilir.



## Cıdır oyunu

Qədim zamanlarda Azərbaycanda ən çox minik vasitəsi kimi atlardan istifadə olunub. Ancaq bu güclü və sədaqətli heyvanlar xalqımızın yalnız məişətdə köməyinə çatmayıb. Ən böyük, adlı-sanlı qəhrəmanlar, ən məğlubedilməz igidlər həm də atları ilə tanınıb, qürrələnib, onu özlərinə ən yaxın dost, etibarlı silahdaş biliblər.

Azərbaycanda bütün el şənliklərində olduğu kimi, Novruz bayramında da təşkil edilmiş bir sıra at oyunları var. Onlardan biri Cıdır xalq oyunudur. Qədim Azərbaycan dastanı "Kitabi-Dədə Qorqud" boylarından, Nizami Gəncəvinin "Xosrov və Şirin" poemasından, eləcə də klassik ədəbiyyatımızın digər nümunələrindən də məlum olan bu oyun-yarışın keçirilməsinə əvvəlcədən xüsusi hazırlıq görülür. Cıdırın keçirildiyi meydan qabaqcadan müəyyənləşdirilir. Adətən, yarış meydanları üçün elə yer seçilir ki, əhali cıdıra çıxanları görə bilsin.

Qoçaqlığı ilə ad çıxarmış cavanlar özlərinin təlim almış atlarını cıdıra hazırlayırlar. Onlar bu yarışa böyük məsuliyyətlə yanaşırlar. Çünki Cıdır gənclər üçün əsl sınaq meydanı hesab edilir. El-obanın mərd, çevik, mahir çaparları bu yarışda bəlli olurlar. Yarış bitəndən sonra da onların barəsində xoş sözlər danışılır. Ona görə də Cıdır iştirakçıları ona, sadəcə, bir yarış, at oynatmaq, əyləncə kimi baxmırlar.

Elliklə yarışı izləməyə gəlirlər. Cıdır əyləncələrini zurnaçılar dəstəsi müşayiət edir. Müəyyənləşdirilmiş məsafəni birinci qət edən Cıdır iştirakçısı yarışın qalibi olur. Adət-ənənəyə uyğun olaraq ona xüsusi hazırlanmış xonça təqdim edilir. Yarışın birincisi olan atın isə alnına bir yumurta vurub sındırır, boynuna qırmızı rəngli kələğayı və ya parça bağlayırlar. Cıdırın digər iştirakçıları da diqqətdən kənarda qalmırlar. Onlara da müəyyən hədiyyələr verilir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

Azərbaycan.- 2025.- 11 mart (№53).-S. 12.